# MƏNALI VƏ ŞƏRƏFLİ ÖMÜR YOLU

***Uçot və maliyyə sisteminin iqtisadiyyatının təşkili və idarə edilməsinin bütün səviyyələrdə təkmilləşdirilməsi həmişə, xüsusilə də, müasir mərhələdə ən vacib vəzifələrdən hesab edilir. Ömrünün 40 ilini bu sahəyə sərf edən, məsuliyyət və peşəkarlıqla çalışan dəyərli iqtisadçılarımızdan biri də Eldar Azay oğlu Təhməzovdur. Onun bu günlərdə 60 yaşı tamam olur.***

Eldar Azay oğlu Təhməzov 1962-ci il sentyabrın 2-də Azərbaycan Respublikasının ən gözəl bölgələrindən biri olan Cəlilabad rayonunda ziyalı ailəsində anadan olmuşdur.

E.Təhməzov əmək fəaliyyətinə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda ali təhsil aldıqdan sonra başlamış, uzun müddət ölkəmizdə vergi və maliyyə sistemində çox mühüm rəhbər vəzifələrdə çalışmışdır. Yüksək təşkilatçılıq bacarığı, özünə və həmkarlarına qarşı münasibətdə tələbkarlıq və səmimiyyəti çalışdığı kollektivlərdə onu böyük nüfuz sahibi kimi tanıtmışdır.

O, 1984-cü ildə Azərbaycan SSR Maliyyə Nazirliyinin məktubu əsasında Cəlilabad rayon Maliyyə şöbəsində Baş inspektor vəzifəsində işə başlamış, 1984-1986-cı illərdə Sovet Ordusunda həqiqi hərbi xidmətdə olmuş, hərbi xidmətdən qayıtdıqdan sonra yenidən 1986-cı ildə öz vəzifəsini davam etdirmişdir. 1987-1988-ci illərdə rayon maliyyə şöbəsinin vergiüzrə inspeksiyasının rəis müavini, sonra isə rəis vəzifəsinə təyin edilmişdir. 1990-1991-ci illərdə Cəlilabad rayon Dövlət Vergi Müfəttişinin rəis müavini, rəisi, 1992-1997-ci illərdə "İttifaq" Assosiasiyasının Prezidenti, 1997-2002-ci illərdə Cəlilabad rayon Maliyyə İdarəsinin rəisi, 2002-2005-ci illərdə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Maliyyə və mühasibat uçotu idarəsinin İqtisadiyyat və maliyyə şöbəsinin rəisi, 2006-2010-cu illərdə "Azəruçot Elmi-Metodiki Xidmət" MMC-nin direktoru, 2010-2021-ci illərdə isə Biləsuvar rayon üzrə Maliyyə İdarəsinin rəisi vəzifələrində çalışmışdır.

Şərəfli və məhsuldar əmək fəaliyyətinin sonrakı illəri isə ölkədə audit sisteminin təşəkkülü və inkişafı ilə birbaşa bağlı olmuş, 2021-ci ilin dekabr ayından etibarən Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən verilmiş icazəyə əsasən "Azəruçot" MMC-nin direktor-auditoru kimi müstəqil auditin formalaşması naminə fəaliyyət göstərir. Ölkəmizdə audit və konsaltinq xidmətləri bazarında önəmli naliyyətlər əldə edərək, həmkarları arasında öz yerini möhkəmləndirmişdir.

**E.Təhməzovun zəngin həyat təcrübəsi, təşkilatçılıq bacarığı və nəcib insani keyfiyyətləri ölkənin auditorları arasında mehriban münasibətlərin bərqərar olmasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərmiş, Azərbaycan auditorları ailəsində daim mehriban münasibətlərin, sağlam işgüzarlıq mühitinin hökm sürməsinə şəxsi töhfəsini indi də verməkdədir.Biz çox sevinirik ki, bu gün dövlət qurumlarının məsul işçiləri və ölkə sahibkarları onun rəhbərlik etdiyi "Azəruçot" MMC-nin auditor xidməti bazarında apardığı xidmətlərin keyfiyyətindən, peşəkarlığından, insani keyfiyyətlərindən danışırlar.**

Hal-hazırda Auditorlar Palatasının üzvü, "Azəruçot" MMC-nin direktor-auditoru və Palata Şurası yanında Elm, innovasiyaların tətbiqi və auditor fəaliyyətinin metodoloji təminatı və Haqsız rəqabətə qarşı mübarizə üzrə komitələrin üzvü kimi E.Təhməzov bütün bilik və bacarığını, işə vicdanlı və məsuliyyətli münasibətini milli audit sisteminin inkişafı işinə sərf edərək, fəaliyyəti zamanı "Auditor xidməti haqqında", "Cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarının, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnamənin, Peşəkar Mühasiblərin Etika Məcəlləsinin, Beynəlxalq Audit Standartlarının, peşə etikası və əxlaq normalarına dair digər normativ hüquqi aktların tələblərinə sərbəst auditorlar və auditor təşkilatları tərəfindən daha dolğun riayət edilməsi ilə bağlı zəruri tədbirlər həyata keçirir, ölkədə auditor xidmətinin təşkilinin təkmilləşdirilməsinə və tənzimlənməsinə yönəlmiş çoxlu maraqlı təkliflər irəli sürür, peşə borcunu daim yüksək səviyyədə yerinə yetirməklə səmərəli fəaliyyət göstərir. O, Palatanın əməkdaşları və üzvləri arasında böyük hörmət və nüfuz qazanmış, eyni zamandaxüsusi fərqlənən həmkarlarımızdandır.Məhz nümunəvi və işgüzar fəaliyyətinə görə E.Təhməzova dəfələrlə təşəkkür elan edilmiş və nəhayət ölkədə auditin inkişafında, auditor peşəsinin nüfuzunun yüksəldilməsindəki xidmətlərinə və Palatanın ictimai həyatında fəal iştirakına görə "Fəxri Fərman"a layiq görülmüşdür.



Eldar müəllimin insani keyfiyyətləri onun iş, peşəkarlıq keyfiyyətlərinin birbaşa davamıdır: o, tələbkar istehsalat rəhbəri və mehriban, qayğıkeş yoldaşdır, böyüklə böyük, kiçiklə kiçik olmağı bacaran xoşrəftar insan və xalqımıza xas olan gözəl ailə başçısıdır: 2 övladı və 2 nəvəsi vardır. Onun ən böyük xobbisi daim mütaliələr etmək və şeir yazmaqdır.

**Atalar yaxşı deyib:** "Ot kökü üstə bitər". Eldar müəllimin rəhmətlik atası Azay Təhməzov Cəlilabad bölgəsində el ağsaqqalı kimi tanınan əsl ziyalı olmaqla bərabər, dövlətini, millətini, xalqını sevən bir insan olmuşdur. Çox sevindirici haldır ki, bu gün onun övladları - Şəmsi Təhməzov və Əli Təhməzov da öz atalarının yolunu davam etdirərək, ən mötəbər dövlət qurumlarında çalışırlar və ölkəmizin iqtisadiyyatının inkişafına və tərəqqisinə öz töhfələrini verirlər.

Eldar müəllim bu gün böyük bir nəslin ağsaqqalı kimi, həm də bütün qohumları, əzizləri və dostları üçün əlindən gələni əsirgəməyən, eyni zamanda onların hər işində öz dəstəyini göstərən şəxslərdən biridir.

Ömür yolunun 60-cı pilləsini arxada qoyduğu bu günlərdə E.Təhməzovu – Azərbaycan auditorları ailəsinin sevimli üzvlərindən və ağsaqqallarından birini, milli audit sistemində öz layiqli yeri olan qayğıkeş və tələbkar həmkarımızı, ölkəmizin iqtisadiyyatının inkişafındakı xidmətləri ilə yanaşı, ümumbəşəri dəyərlərə hörmətlə yanaşan, vətənini, dövlətini, millətini ürəkdən sevən, zəngin dünyagörüşünə malik olan dəyərli dostumuzu anadan olmağının 60 illik yubileyi münasibətilə bir daha səmimi qəlbdən təbrik edirik, uzun ömür, möhkəm can sağlığı, xoşbəxtlik, ölkəmizin iqtisadi-siyasi həyatında malik olduğu böyük hörmət və nüfuzu daim qoruyub artırmağı, müstəqil Azərbaycanın uğurlu inkişafında yeni-yeni töhfələrinin şahidi olmağımızı arzu edirik.

**Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi, üzvləri və bütün əməkdaşları adından ömrünün təxminən 40 ilini ölkəmizin iqtisadi sahələrindəki işlərə və hazırda isə audit sisteminin təşəkkülü və inkişafına həsr edərək, böyük nüfuz qazanmış, zəhmətlə yüksələn, bacarıqlı təşkilatçı, qayğıkeş həmkar, təcrübəli mütəxəssis və mehriban insan Eldar Azay oğlu Təhməzovu anadan olmasının 60 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona iqtisadi inkişaf və səmərəli fəaliyyətin mühüm şərtlərindən biri hesab edilən uçotun təşkili, audit nəzarətinin təkmilləşdirilməsi, şəffaflığın təmin edilməsi ilə bağlı gördüyü işlərdə uğurlar arzulayırıq.**

Yazımı Eldar müəllimin insanlar haqqında həmişə dediyi bir müdrik fikirlə yekunlaşdırmaq istəyirəm: «İnsan o vaxt xoşbəxt olur ki, onun ürəyində sevinc və inam olsun». Hesab edirəm, Eldar müəllimin xoşbəxtliyi ondadır ki, qəlbində həmişə inam güclü olmuşdur, bu inam da ona həmişə sevinc gətirmişdir.

*Səbuhi GÜLMƏMMƏDOV,*
**Azərbaycan Respublikası Auditorlar Palatasının icraçı direktoru**